***Nazir ƏHMƏDLİ***
***Atatürk Mərkəzi***
***e-mail: nahmed61@mail.ru***

# DƏRƏLƏYƏZLİ AŞIQ CƏLİL: HƏYATI VƏ YARADICILIĞI

**Xülasə**

Dərələyəz mahalının Sallı kəndində 1868-ci ildə dünyaya gələn Aşıq Cəlil 12 saz havasının müəllifi kimi tanınır. Aşığın uzun müddət tədqiqatlardan kənarda qalmış həyatı və yaradıcılığı son 30 ildə öyrənilməyə başlanmışdır. İlk dəfə olaraq arxiv sənədləri əsasında onun və yaxın qohumlarının doğum tarixləri, indiyə kimi araşdırıcılara məlum olmayan qohumlarının adları aşkar edilmiş, Aşıq Cəlil haqqında əvvəlki müəlliflər tərəfindən yazılanlar tənqidi təhlildən keçirilmişdir.

20-ci əsrin əvvəllərində erməni daşnaklarının Cənubi Qafqazda törətdiyi iğtişaşlar və qırğınlar nəticəsində Aşıq Cəlil bir çox doğmalarını itirmiş, özü isə Dərələyəzdən qaçqın düşərək ömrünün son illərini Naxçıvanda yaşamış və orada da vəfat etmişdir.

Aşığın sağ qalan kiçik oğlu Aşıq Bəhmən 1942-ci ildə Naxçıvanın Babək rayon hərbi komissarlığı tərəfindən səfərbərliyə alınaraq cəbhəyə göndərilmiş, 1944-cü ildə ikinci dünya müharibəsində itkin düşmüşdür.

**Açar sözlər:** Aşıq, Cəlil, Sallı, Dərələyəz, Bəhmən, Dizə, Yeni Yol, Kameral təsvir.

## ASHUG JALIL İN DARALAYAZ: LIFE AND ART

**Summary**

The author of the article had determined a famous Ashug Jalil's and his relatives' dates of birth who were born in Sally village of Daralayaz district on the basis of cameral descriptions compiled by the officials of Tsarist Russia in the 19th century and he revealed his 250-year genealogy. It became apparent that Ashug Jalil was born not in 1850, but in 1868. He is considered to be the author of 12 saz songs.

Though different articles have been written about Ashug Jalil within last 30 years, firstly the author of the article discovers his two brothers', grandfathers', two uncles', cousins', grandmothers' and aunts' names and he introduces them to the scientific community. It had been revealed that Ashug Jalil belonged to the Bargushad tribe of the Garachorlulars.

The author had discovered that Ashug Jalil's son Ashug Bahman was sent to the Great Patriotic War from Babek region in 1942 and was lost in 1944. So, the majority of the family members died as a result of massacres (genocide) which were committed by Armenian dashnaks in Daralayaz and an end had been put to disputes about Ashug Jalil's refugee life.

**Key words:** Ashug Jalil, Sally, Daralayaz, Bahman, Diza, Cameral description.

## АШУГ ДЖАЛИЛЬ ИЗ ДАРАЛАЯЗА: ЖИЗНЬ И ТВОРЧЕСТВО

**Резюме**

Автор статьи, на основе камеральных описаний, составленных чиновниками царской России в 19 веке, уточнил дату рождения знаменитого Ашуга Джалиля и его близких родственников, родившихся в селе Саллы Даралаязского магала, такжевыявил его 250-летнюю генеалогию. Автором выявлены, что Ашуг Джалиль родился не в 1850 году, как раньше приблизительно предполагали, а в 1868 году. Он является автором 12 композиций для саза .

В течение последних 30 лет написан ряд работ про Ашуга Джалиля, но имена двух братьев, дедушки, двое дядей и двоюродных братьев, бабушки и тётей Ашуга Джалиля выявлены именно автором статьи и вводится в научный оборот впервые. Было установлено, что Ашуг Джалиль принадлежит к племени Баргушат из рода Карачорлу.

Автор обнаружил, что сын Ашуга Джалиля Ашуг Бахман отправился из Бабекского района в Великую Отечественную войну в 1942 году и пропал без вести в 1944 году. Таким образом, автор поставил точку дискуссиям о его местонахождении, где Ашуг Джалиль, после убийства большинство членов его семьи в результате массовых убийств, совершенных армянскими дашнаками в Даралаязе, провёл переселенческий образ жизни.

**Ключевые слова:** Ашуг, Джалиль, Саллы, Даралаяз, Бахман, Дизе, Ени Йол, Камеральное описание.

***Giriş.*** "Cəlili" aşıq havası ilə öz adını Azərbaycan aşıq sənətinin tarixinə əbədi olaraq yazmış Aşıq Cəlilin doğulduğu, əhalisi qaraçorluların bərgüşad tayfasına mənsub olan Sallı kəndi Dərələyəz mahalının mühüm kəndlərindən biri idi. Bizə gəlib çatan məlumatlar bu kəndin əhalisinin Səfəvi xanədanına və Səfəvilər dövlətinə olan sədaqətini sübut edir. Osmanlı dövləti 1724-cü ildə Səfəvilərin bir çox əraziləri ilə yanaşı, Dərələyəz mahalını da işğal etdikdən sonra, vergi yığmaq üçün 1727-ci ildə Dərələyəz mahalının da daxil olduğu Naxçıvan sancağı üzrə müfəssəl dəftər tərtib etmişdilər. Həmin sənəddə Dərələyəzin başqa kəndləri kimi, Sallının da adı var:

**"57. DƏRƏLƏYƏZ NAHİYƏSİNƏ TABE OLAN SALLI MƏZRƏSİ**

**Bu məzrə əvvəllər kənd imiş. Kəndin əhalisi qızılbaş (şiə) olduğuna görə qaçıb getmişdi.**

**Kənd boş qaldığına görə dəftərə məzrə olaraq qeydə alındı.**

**Buğda və vergilərdən əldə edilən gəlir 3.620 ağça"**[23, s.186].

Qeyd edək ki, həmin vaxt Sallı əhalisindən başqa Dərələyəz mahalında əhalisi qızılbaş (şiə) olan və sallılılar kimi qaçıb gedən daha 3 kənd vardı. Bunlar Şahyurdu, Ərdiş və Kərəkölük kəndləri idi [23, s.9].

Şiə təriqətindən olan bu köçkünlər qonşu əyalətlərə köç etməklə həm öz təriqətlərində qalma fürsəti tapır, həm də təriqətini dəyişmədiyinə görə osmanlı müftilərinin fitvalarının onlara tətbiq edilməsindən xilas olurdular. Osmanlı idarəsində qalan və köçə bilməyən əhali isə üzdə təriqətini dəyişməklə vəziyyətdən çıxa bilirdi. Lakin səfəvilər osmanlıları tutduqları ərazilərdən çıxardıqdan sonra təriqətlərini dəyişmiş insanlar yenidən əvvəlki təriqətlərinə dönürdülərsə də, səfəvilərin də, osmanlıların da sərt münasibəti ilə qarşılaşırdılar. Səfəvilər həmin şəxslərə mənəvi zərbə olan "dönük", yəni təriqətinə və məzhəbinə dönük çıxan damğası vurur, osmanlılar isə cərimə tətbiq edərək qeyri-müsəlmanlardan aldıqları baş vergisi olan "bədəli-cizyə" vergisini ödətdirirdilər [13, s.14].

Nadir xan Əfşar Səfəvilər dövlətinin osmanlılar tərəfindən işğal edilən bütün torpaqları kimi, 1735-ci ildə Dərələyəzi də azad etdi və bu yerlərin gələcək sakinləri olan qaraçorlular da bu işdə ona ciddi kömək etdilər. Qarabağda yaşayan Qaraçorlu eli Nadir şah Əfşarın hakimiyyətinə qədər yarımmüstəqil həyat tərzi sürmüş, Nadir Qarabağı osmanlılardan geri almaq üçün gələndə yerli tayfaları öz qoşununa dəvət edərkən qaraçorlular həvəslə onun təklifini qəbul etmişlər. Onun qoşununda vəzifə alan Qaraçorlu elinin başçısı Rüstəm bəy Osmanlı Sədrəzəmi Abdulla paşanı döyüşdə öldürmüşdür. "Qarabağnamə" müəllifi olan Mir Mehdi Xəzani bu barədə yazır:

"Şul vaxtda ki, Nadir şah Gəncə və Tiflis və İrəvan və Naxçıvan və Şirvanat vilayətlərini osmanlı sultanının qoşununun təsəllütlərindən çıxarıb Abdulla paşa Köprülü oğlu vəziri-əzəmi-Rum yüz min qoşun və çox top və tədarük ilə sultani-Rum tərəfindən məmur olub gəlmişdi ki, Nadir şah ilə cəng edə. Nadir şah Gəncə mühasirəsinə məşğul ikən Abdulla paşanın şul əzim əsgərləri ilə İrəvana gəlməyini eşidib Gəncə üstə qoşun qoyub, özü əlli min qoşun ilə Abdulla paşaya müqabil gedib Naxçıvan və İrəvanın Arpa çayında davaları vaqe olub, Rum qoşununu basıb və Abdulla paşa vəziri-əzəmi Rüstəm bəy Qaraçorlu öldürüb başını Nadir şah hüzuruna gətirmişdi" [18, s.123-124].

"Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (1727)" kitabında qaraçorlularla bağlı maraqlı bir fakta da rast gəlinir."Müfəssəl dəftər"dən və başqa mənbələrdən məlum olur ki, Qaraçorlu tayfası tez-tez ermənilərə basqın edir və tutub gətirdilkəri erməniləri öz tarlalarında işlədirdilər [13, s.19].

"Müfəssəl dəftər"i tərtib edən katib yazır:

"**Qaraçorlu camaatı.**Bu camaatın təxminən 400 evi (xanə) olmuşdur. Əcəm (Səfəvi) dövründə itaətsizliyindən dolayı xəzinəyə vergi ödəmirdi.... bir qisim ermənini həm xoşluqla, həm də məcburi şəkildə özlərinin rəayası etmişdir. Zarıs, Keştasf, Məğavuz və Həkəri tərəflərdə əkinçiliklə məşğul olur, lakin üşr və bəhrəni vermirlər.Üzərlərinə əsgər göndərilsə də, sığıncaq yaxınlığında yaşadıqlarına görə, sığıncaqlara çəkilib gizlənir və indiyə qədər onların üzərində qələbə çalmaq əsgərlərə müyəssər olmamışdır. Bu vəziyyət indi də belədir"[13, s.471].

Dərələyəz 1735-ci ildə azad edilsə də, uzun müddət boş qalmışdı. Rusiya imperiyası 19-cu əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarını işğal etmək üçün hərbi əməliyyatlara başlayanda Qarabağ xanlığı müharibənin ən qaynar ərazisi olmuşdu. Qarabağ hakimi İbrahim xan və oğlu Mehdiqulu xandan fərqli olaraq, qaraçorlular öz dövlətinə-təbəəsi olduqları İran Qacarlar dövlətinə sadiq qalmış və Qaraçorlu tayfasının başçısı Nəbi bəylə Mehdiqulu xan arasında nifaq yaranmışdı. Ruslara qarşı döyüşən Qacar qoşunlarının komandanı Abbas Mirzə qaraçorluların sədaqətini görüb, 1811-ci ildə o vaxta qədər boş olan Dərələyəz mahalını Nəbi bəyin başçılığı ilə qaraçorlulara vermiş və onları bütün vergilərdən azad etmişdi. İşğaldan sonra Rusiya dövləti də onların bu imtiyazını saxlamışdı [21, s.80].

Rusiya imperiyası 1827-ci ildə İrəvan xanlığını və Dərələyəz mahalının da daxil olduğu Naxçıvan xanlığını işğal etdi, 1828-ci il fevralın 10-da bağlanmış Türkmənçay müqaviləsinə görə hər iki xanlığın ərazisi Rusiyanın tərkibinə keçdi [24, s.581-607].

Osmanlılar kimi rus idarəçilər də ilk növbədə vergi toplamaq məqsədi ilə "Kameral təsvir" deyilən sənədlər tərtib edib, əhalini siyahıya aldılar. Belə sənədlərin birincisi 1831-ci ildə, digərləri isə 1842-ci, 1852-ci, 1859-cu, 1873-cü və 1886-cı illərdə tərtib edilmişdir. Uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalan bu mühüm dövlət sənədləri görkəmli şəxsiyyətlərin doğum tarixlərini və başqa məlumatları özündə daşımaqla, tədqiqatçılar üçün çox qiymətli

mənbə rolunu oynayır. Aşıq Cəlilin doğum tarixi və şəcərəsi də həmin sənədlərin əsasında müəyyən edildi.

***1.Aşıq Cəlil haqqındakı tədqiqatlar.***

Aşıq Cəlilin həyatı və yaradıcılığı çox təəssüf ki, uzun müddət tədqiqatçıların diqqətindən kənarda qalmış və yalnız son 30 ildə müəyyən araşdırmalar aparılmışdır.Amma bu yazılarda rəsmi sənədlərə, arxiv materiallarına istinad edilmədiyindən, bəzi məsələlər, xüsusilə onun doğum tarixi və şəcərəsi ilə bağlı problem hələ də öz həllinin tapmamış, bəzi istisnalar xaric, şeirləri toplanmamışdır. Halbuki aşığı tanıyanların, apardığı məclisləri görənlərin yaşadığı vaxtlarda daha dürüst məlumatlar toplamaq mümkün idi.

Aşığın ilk ciddi tədqiqatçısı saya biləcəyimiz Əli Şamil 1985-ci ildə həm rus dilində çıxan «Советская Нахичевань», həm də "Sovet Naxçıvanı" qəzetində "El sənətkarlarımız" rubrikasında çap etdirdiyi "Aşıq Cəlil" adlı məqaləsində ilk dəfə onun həyat və yaradıcılığı haqqında ətraflı məlumat vermiş, aşığın nəvəsi Aşıq Mirzalının xatirələrinə əsaslanaraq Aşıq Cəlilin 12 saz havasının müəllifi olduğunu, aşıqlıq sənətini Abbas Dəhridən öyrəndiyini də qeyd etmişdir. Məqalədə müəllifliyi Aşıq Cəlilə aid edilən "Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili", «Qaytarma», "Sallama gəraylı" (çox vaxt ona"Dərələyəz gəralyısı" da deyirlər) 5 saz havasının adı çəkilir. Müəllif həmin məqalədə aşığın doğum tarixinə toxunmasa da, şahidlərin söhbətindən Aşıq Cəlilin 1924-1928-cu illərdə vəfat etdiyini və Dizə kəndininQəriblər qəbistanlığında dəfn edildiyini bildirir. Ə.Şamil yazır: "Bu aşıqlar özlərindən əvvəl yaranmış saz havalarını yaşatmaq, təbliğ etməklə yanaşı, onlara yeni xallar, yeni güllər əlavə etmiş, bəzən də yeni saz havaları yaratmışlar. Aşıq Cəlil də belə bəstəkar aşıqlardan olmuşdur. Yaratdığı saz havaları vaxtında nota köçürülmədiyindən, haqqında geniş elmi fikir söyləmək, yaradıcılığının spesifik cəhətlərini təhlil etmək olduqca çətindir" [26; 28].

Azərbaycan Sovet Ensiklopediyasının 1987-ci ildə nəşr edilən 10-cu cildində "Cəlili" adlı aşıq havasının müəllifliyi Aşıq Cəlilə aid edilsə də, səhvən onun 18-ci əsrdə yaşadığı göstərilir [4, s.412].

Qulu Kazımov 1989-cu ildə "Qobustan" jurnalında çap etdirdiyi "Aşıq Cəlilin sorağı ilə" [15, s.21-23]adlı məqaləsində Aşıq Cəlilin doğum tarixi haqqında təxmini rəqəm verir: "Aşıq Cəlil təxminən 1850-ci illərdə Sallı kəndində dünyaya gəlib.Hələ uşaq vaxtlarından saza-sözə könül verib. Aşıq Cəlil gözünü açıb Şair Təhməzi, Dəllək Xələfi, Aşıq Əsədi görüb (Şair Təhməz məsələsinə qayıdacağıq-N.Ə.). Qocaların dediyinə görə, Dəllək Xələf aparan məclisin həndəvərinə hamilə qadınları buraxmazmışlar... Cəlilin atası Mehralı kişi də saz-söz həvəskarı imiş və o da şeir məclislərinə gedər, balaca Cəlili də özü ilə apararmış".

Müəllif belə məclislərdən birində 16 yaşlı Cəlilin İrandan gəlmiş Aşıq Abbasın diqqətini çəkdiyini və onu özünə şəyird götürdüyünü də qeyd edir. Q.Kazımova görə, gənc Cəlil Aşıq Abbasa 4 il şəyirdlik etmiş və onun sayəsində mükəmməl aşıq kimi yetişmiş, müstəqil aşıqlığa başladıqdan sonra səsi-so-

rağı ətraf mahallara yayılmış, göyçəli Aşıq Ələsgər onu yanına dəvət edərək çalıb-oxumasına qulaq asmış və sənətinə yüksək qiymət vermiş, onun yaratdığı saz havası da Aşıq Ələsgərin tövsiyyəsi ilə "Cəlili" adlandırılmışdır.

Q.Kazımov həmin məqalədə "Qəhrəmanı" və "Badamı" adlı daha iki saz havasının müəllifliyini Aşıq Cəlilə aid edir.

Aşıq Cəlillə bir kənddə doğulmuş Q.Kazımov Qulu Kəngərli imzası ilə "Ozan" qəzetində [16] çap etdirdiyi və "Erməni lobbisi...Azərbaycan faciəsi" [17] kitabına daxil etdiyi "Aşıq Cəlil kimdir?" adlı məqaləsində də təxminən həmin fikirləri təkrar edir, erməni qırğınları nəticəsində aşığın doğma yurdundan qaçqın düşərək 1923-cü ildə Naxçıvanın Dizə kəndində təxminən 75 yaşında vəfat etdiyini yazır.

Tədqiqatçı K.Dərələyəzli də Aşıq Cəlil mövzusuna diqqət yetirmiş, aşığın 1850-ci ildə doğulması haqqındakı ehtimalıqüvvəsində saxlamış və"Dərələyəz od içində" kitabında ilk dəfə AşıqCəlilin şeirlərindən nümunələr vermişdir [6, s.236; s.443-451].Müəllif Aşıq Cəlilin şeirlərini necə əldə etdiy barədə yazır: "1975-80-ci illərdə bacım Nazpərigilə, Dizə kəndinə gedərdim... Bacımgilin qonşuluğunda yaşayan Nərgiz müəllimənin anası Aşıq Cəlilin şeirlərindən bəzilərini yadında saxlamışdı. Aşıq Cəlil altı ildən çox Miryasin ağanın həyətində qalmışdı. Dizə qocalarının dediyinə görə Şərurda Aşıq Cəlil böyük hörmətə malik olmuş və gözəl şeirləri ilə sayılıb, seçilmişdir" [6,s.447].

Müəllif adı çəkilən kitabına Aşıq Cəlilə aid etdii "Peşman olar" gəraylısını, "Hardasan", "Bilmərəm" və "Olar" adlı üç qoşmanı, "Gözə görünməz" divani-təcnisini və "Üz ola" cığalı təcnisini daxil etmişdir.

Tədqiqatçının fikrincə,1918-ci ilin hadisələrində müsəlman əhalinin başına gətirilən müsibətlərdən mütəəssir olan Aşıq Cəlil "Hardasan" qoşmasını el qəhrəmanı Abbasqulu bəy Şadlinskiyə xitabən demişdir:

*Yapon bu yerlərdə meydan sulayır,*
*Nıjde belimizdə ocaq qalayır.*
*Yurdumda-yuvamda bayquş ulayır,*
*Sönür od-ocağım, közüm, hardasan?*

*Kafir süngüsünə keçir qız-oğlan,*
*Arpa qayasından qan süzülür, qan!*
*Qalmadı mahalda ər, sənə qurban,*
*Şəhid olur oğlum, qızım, hardasan?*

Q.Kəngərlidən fərqli olaraq K.Dərələyəzli Aşıq Cəlilin Şərur mahalının Dizə kəndinə pənah gətirdiyini və 1923-cü ildə orada öldüyünü yazır.

K.Dərələyəzli sonradan Aşıq Cəlil mövzusuna yenidən qayıtmış və "Dərələyəz" qəzetində "Aşıq Cəlil yaradıcılığı" adlı məqalə çap etdirmişdir [5].O, Aşıq Cəlilin şeirlərini Nərgiz müəllimənin anası Tovuz nənədən və onun baldızı Zeynəb nənədən topladığını qeyd etdiyi məqaləsində yazır:

"Atam Aşıq Cəlilin yaradıcılığını gözəl bilirdi. Səkkizinci sinifdə oxuyarkən atamın yaddaşında qalmış Cəlilin şeirlərini dəftərə yazmağa başladım. Yaz

və payız ayları Sallılı Aşıq Bəhmənin oğlu Süleymanla bir sinifdə oxuduğum vaxt hər bazar günü Sallı kəndinə gedərdim. Aşıq Bəhməndən və Aşağı Sallı kəndində şair təbiətli İman kişidən təxminən 20-yə qədər Aşıq Cəlilin şeirlərindən toplamışdım. 1964-cü ildə İrəvan Pedaqoji İnstitutuna qəbul olarkən topladığım, Cəlilə məxsus 35 şeiri Əkbər İrəvanlıya təqdim etdim və xahiş etdim ki, "Ədəbi Ermənistan" almanaxında çap etdirsin. Açığını desəm, bir neçə dəfə Əkbər İrəvanlıdan şeirlər barədə soruşdum. "A bala, indi aşıq yaradıcılığına fikir verən yoxdur",- dedi ".

Təəssüf ki, K.Dərələyəzli topladığı həmin şeirlərin surətini özündə saxlamamış və səhlənkarlıq nəticəsində itmişdir.

Professor H.Mirzəyev "Qərbi Azərbaycanın Dərələyəz mahalı" kitabında Aşıq Cəlilin 1850-ci ildə doğulduğunu, 1866-1867-ci illərdə İranlı aşıq Abbas Dəhriyə şəyirdlik etdiyini, sonrakı dövrlərdə Aşıq Alının yanına gedib ondan aşıqlıq sənətinə aid çox şey öyrəndiyini, onun ən böyük ustadının və həmfikrinin Aşıq Ələsgər olduğunu yazır, həm də adı çəkilən 7 saz havasından başqa, "Naxçıvanı" havasının müəllifliyini də Aşıq Cəlilə aid edir və bütün bu mülahizələrində Q.Kəngərlinin məlum məqaləsinə istinad edir [22, s.513]. H.Mirzəyev həmin kitaba müəllifliyini Aşıq Cəlilə aid hesab etdiyi 5 şeir də daxil etmişdir, bu şeirlərin 5-i də K.Dərələyəzlinin "Dərələyəz od içində" kitabındakı şeirlərdir, "Peşman olar" gəraylısı isə yoxdur [22, s.514-516]. Amma H.Mirzəyev K.Dərələyəzlidən fərqli olaraq mənbə göstərməyib.

H.Mirzəyev, H.İsmayılov və Ə.Ələkbərli tərəfindən tərtib edilmiş "Dərələyəz folkloru" antologiyasında da həmin fikirlər yer almaqla yanaşı, müəllifiyini Aıq Cəlilə aid etdikləri həmin şeirlər verilmiş, yenə də onların harada və kimdən toplanması məsələsinə toxunulmamışdır [7,s.240-243]. Kitabda "Yüngül Şərili", "Ağır Şərili" və "Təzə Naxçıvani" saz havalarının müəllifliyi də Aşıq Cəlilə aid edilir.

Ə.Şamil və Q.Kəngərlidən fərqli olaraq H.Mirzəyev də Aşıq Cəlilin Şərur rayonunun Dizə kəndində qaçqınlıq həyatı yaşadığı və orada da öldüyünü yazır. Q.Kəngərli və K.Dərələyəzli Aşıq Cəlilin Abbasqulu bəy Şadlinski ilə görüşməsindən bəhs edirlər. Ə.Şamilin ehtimalına görə bu müəlliflər Sallılı Aşıq Cəlili Vedibasar mahalının Şahab kəndindən olan və ermənilər tərəfindən 1918-ci ildə faciəli şəkildə qətlə yetirilən Aşıq Cəlillə dəyişik salmışlar. Şahablı Aşıq Cəlilin həyatında baş verən həmin faciəli hadisələr folklorşünas Əziz Ələkbərlinin və Əli Şamilin tədqiqatlarında təsvir edilmişdir [11; 12; 27, s.79].

A.(Səfolu) Alıyevin "Dərələyəz folklorunun regional xüsusiyyətləri" [1] kitabında Aşıq Cəlilin özü haqqında məlumat verilməsə də, bəzi aşıqlardan bəhs edilərkən, onların ustadının Aşıq Cəlil olduğu qeyd edilir.

Əli Şamil 2007-ci ildə Aşıq Cəlil mövzusuna bir daha qayıtmış, Ankarada nəşr olunan "Folklor-Edəbiyyat (Nahçıvan özel sayısı)" dərgisində "Sallı Aşıq Cəlil" adında məqalə çap etdirmişdir[25, s.179-184].2007-ci ildə "Dədə Qorqud" jurnalında çap etdirdiyi və Ankarada nəşr olunan məqaləsindən az fərqlənən "Sallı Aşıq Cəlil" məqaləsini tədqiqatçı Ə.Şamilin Aşıq Cəlilin həyat

və yaradıcılığının araşdırılmasına sərf etdiyi 22 illik tədqiqatlarının uğurlu finalı adlandırmaq olar[29,s.67-75]. Tədqiqatçı topladığı məlumatları, qaynaqları təhlil edərək, Aşıq Cəlilin 1850ildə deyil, 1870-ci ildə doğulduğu ehtimalını irəli sürür. Əldə etdiyimiz arxiv sənədləri Ə.Şamilin həqiqətə olduqca yaxın olduğunu göstərdi.

Əli Şamilin musiqişünas Kamilə Axundova-Dadaşzadənin 25.04.1986-cı il tarixli məktubunun yer aldığı həmin məqaləsi başqa bir cəhətdən də diqqətimizi çəkdi. Musiqişünas orada müəllifliyi Aşıq Cəlilə aid edilən "Baş Cəlili", "Orta Cəlili", "Ayaq Cəlili" və Dərələyəz gəraylısı" saz havalarını musiqi baxımından ətraflı təhlil etmiş, qiymətli fikirlər söyləmişdir. K.Axundova-Dadaşzadə öz məktubunda yazır: "Ümumiyyətlə, aşıq havalarının mənşəyi, onların inkişaf yolunun öyrənilməsi olduqca mürəkkəb bir prosesdir. Onlar həmişə öz əski adlarını mühafizə etmirlər. Təbii ki, müəyyən dəyişikliklərə uğrayırlar. Bir istedadlı aşığın səyi nəticəsində yeni bir dəyişikliyə uğrayır və yeni ad qazanır. Bu xüsusiyyətlər «Cəlili» havaları üçün də çox səciyyəvidir"[29, s.70].

Qeyd edək ki, Aşıq Cəlilə aid hesab edilən saz havalarını təhlil etməyi K.Axundovadan Ə.Şamil xahiş etmişdir.

Aşıq Cəliln neçə saz havasının müəllifi olmasında fikir müxtəlifliyi olduğu kimi, bunun əksinə olan başqa bir ifratçı mövqe də mövcuddur. Onun müəllifi özünü "aşıq, şair, publisist" adlandıran M.Hüseynlidir. O, yazır:"Gözümü dünyaya açandan, ağlım kəsəndən korifey aşıqları dinləmişəm. Onların əksəriyyəti dünyasını dəyişib. Korifey sənətkarlarımızdan biri də aşıq Əsəd Rzayevin şəyirdi olmuş aşıq Mikayıl Azaflıdır. Aşıq Mikayıl Azaflı da mənim ustadımdır. Həmişə ustadımla aşıq havalarının yaradıcıları haqqında məlumat toplamışam. Hətta onlarla bu barədə etdiyim söhbətləri maqnitofon lentinə yazdırmışam. Onlardan biri yenə də aşıq Əsəd Rzayevin yetirməsi aşıq Məhəmməd Çovdaroğludur. Onunla söhbətimizdə dedi ki, bir çoxları aşıq havalarını bəstələyən aşıqların adıyla yox, onu yüksək səviyyədə ifa edənlərin adyla oxuyurlar. O cümlədən, vaxtilə Kolanlı Bəylər tərəfindən yaradılmış, indi isə "Cəlili" və "Ayaq Cəlili" adlanan aşıq havalarıdır. Aşıq Məhəmməd deyir ki, ustadı aşıq Əsəd Rzayev bu havacatları Ağ Aşıq Allahverdi, Aşıq Alı, Aşıq Ələsgər gəncliklərində el məclislərində oxuduqlarını söyləyib. Yəni bu hava Aşıq Sallı Cəlildən çox-çox əvvəllər yaranıb. Bu, aşıq Kolanlı Bəylərə və onun müasirlərinə saygısızlıq kimi sayıla bilər. Onu da deyim ki, yaşı 90-nı ötmüş aşıq Məhəmməd Çovdaroğlu və onun müasirləri bu həqiqəti gizlətməyiblər"[14].

Dolaşıq ifadə etdiyi cümlələrdən çətinliklə başa düşmək olur ki, M.Hüseynli nəinki qalan havaları, hətta "Cəlili" havasının da Aşıq Cəliləaid olduğuna şübhə edərək, onu Kolanı kənd sakini, nə vaxt doğulduğunu və öldüyünü bilmədiyi və yazmadığı Aşıq Bəylərə aid edir. Məqalə müəllifi söhbətin hansı Kolanı kəndindən getdiyini də qeyd etməyib. Məlum olduğu kimi, Şahbuz, Salyan, Ağdam, Tərtər rayonlarında Kolanı adında kəndlər var. Hətta vaxtilə Vedibasarda da Kolanı kəndi olub.

Qeyd etmək lazımdır ki, aşıq M.Hüseynlinin həqiqətdən uzaq "fəlsəfə"sini bir kənara qoyub qeyd etməliyik ki, digər 11 hava bir yana dursun, müəllifliyi heç bir şübhə doğurmayan təkcə "Cəlili" havası bu böyük sənətkarın adını yaşatmağa kifayətdir.

Aşıq Cəlilin haqqında professor M.Qasımlının "Göyçə aşıq mühitində Aşıq Ələsgər hansı haqqa sahibdirsə, Dərələyəz aşıq mühitində Aşıq Cəlil həmin mövqeyin sahibidir. On beşdən yuxarı şagird yetişdirən Aşıq Cəlilin qardaşı və üç oğlu, daha sonra isə iki nəvəsi də aşıq olmuşdur" [19, s.164; 20, s.191]fikri Aşıq Cəlilin Azərbaycan saz sənətindəki yerini dəqiq ifadə edir.

***2.Aşıq Cəlil və qohumları arxiv sənədlərində***

Aşığın sağ qalan yeganə oğlu Aşıq Bəhmən Böyük Vətən müharibəsinə gedib və geri qayıtmayıb. Aşıq Cəlilin Şərur, yoxsa Babək Dizəsinə köçməsi haqqındakı fikir müxtəlifliyinə son qoymaq üçün Aşıq Bəhmənin hansı rayonun hərbi komissarlığından cəbhəyə göndərilməsini aydınlaşdırmaq qərarına gəldik. Məlum oldu ki, Aşıq Bəhmən 1842-ci ildə Babək rayon hərbi komissarlığından cəbhəyə göndərilib:

**"Mehrəliyev Bəhmən Cəlil oğlu**

**1900-cu ildə Babək rayonunun Gültəpə kəndində doğulub. 1942-ci ildə Azərbaycan Respublikası Babək rayon hərbi komissarlığı tərəfindən orduya çağırılıb.**

**Sıravi əsgər Mehrəliyev Bəhmən Cəlil oğlu 1944-cü ildə itkin düşüb"** [3, s.188].

Burada iki qeyri-dəqiqliyə yol verilib. Əslində kəndin adı Gültəpə yox, Kültəpədir, ikincisi isə Bəhmən Kültəpədə yox, Sallı kəndində anadan olub, Kültəpə kəndində qaçqınlıq həyatı yaşayıb və oradan cəbhəyə gedib.

Bu sənəddən həm də Aşıq Bəhmənin dəqiq doğum tarixinin 1900-cu il olduğunu aşkar etmiş olduq.

Beləliklə, Aşıq Cəlilin və ailəsinin Məmmədrza Dizəsi, başqa adı ilə Kültəpə kəndində qaçqınlıq həyatı yaşadığı haqqında tədqiqatçı Ə.Şamilin mülahizələri özünü doğrultdu.

Haqqında söhbət gedən tədqiqatlarda Aşığın həyatının nə qədər düzgün əks olunduğunu yoxlamaq üçün Dərələyəzin Rusiya imperiyası tərəfindən işğalından sonra rus idarəçilər tərəfindən tərtib edilmiş və vergi toplanması üçün zəruri olan kameral sənədlərə müraciət etdik. Axtarış üçün lazım olan baza məlumatları – Aşıq Cəlilin atasının adının Mehralı, qardaşının adının isə Məhəmməd olması tədqiqatçı-jurnalist Q.Kəngərlinin yazılarında yer almışdır.

Aşıq Cəlilin adının ilk rast gəldiyi 1873-cü ilin Kameral siyahısında onun ailəsi belə qeyd edilmişdir:

**"İRƏVAN QUBERNİYASI, NAXÇIVAN QƏZASI**
**ƏLƏYƏZ kənd icmasına daxil olan**
**SALLI kəndinin KAMERAL TƏSVİRİ. 1873-cü il.**
***Xəzinə torpaqlarında yaşayan vergi mükəlləfiyyətli kəndlilər.***
***İslam dininə mənsub olan tatarlar.***

***Əkinçiliklə məşğul olurlar.***
***11.19.Hacı Qurbanəli Mahmud oğlu 49 yaşında; onun oğlu Mehdi 7 y; qardaşı Mehralı 43 y; oğlanları: Məhəmməd 15 y; Cabbar 7 y; Cəlil 5 y. Ailədə 5 qadın var"*** [10].

Beləliklə,1873-cü ilin kameral siyahısında 5 yaşında qeyd edilən Aşıq Cəlilin 1868-ci ildə doğulduğunu görürük. İndiyə qədərki təxmini 1850 rəqəmi onun yaşının 18 il böyüdüldüyünü göstərir.

Kameral siyahının tərtib edildiyi 1873-cü ildən bu şəxslərin yaşını çıxdıqda, məlum olur ki, Cəlilin atası Mehralı 1830-cu ildə, qardaşları Məhəmməd 1858-ci, Cabbar isə 1866-cı ildə doğulublar. Göründüyü kimi, Cəlil ailənin kiçik oğludur. Həm də indiyə qədər adını bilmədiyimiz Cabbar adlı daha bir qardaşı var. Mehralı özündən 6 yaş böyük qardaşı Hacı Qurbanəli ilə bir evdə yaşayır. Onların ayrı evinin olmaması qardaşların kasıb olduğunun göstəricisi sayıla bilərdi, amma Qurbanəlinin həcc ziyarətində olması bu ehtimalı azaldır, çünki kameral siyahıların ilk müəllifi olan İ.Şopen həcc ziyarətinin 600 rubla başa gəldiyini yazır [31, s.704]. Kifayət qədər böyük məbləğ olan bu qədər pulu həcc ziyarətinə xərcləyə bilən ailəni imkanlı hesab etməliyik. Oxucuda aydın təsəvvür yaratmaq üçün qeyd edək ki, 455 kq-a ekvivalent olan o vaxtın çəki vahidi olan 1 xalvar buğdanın da, 1 sağmal inək kimi qiyməti təxminən 6 rubl idi, başqa sözlə, həcc ziyarətinə sərf olunan pula 45 ton buğda və ya 100 sağmal inək almaq olardı [31, s.745; s.795-796].

Bu sənəddən Cəlilin indiyə qədər haqqında məlumat verilməyən babası Mahmudun, əmisi Qurbanəlinin və onun oğlu Mehdinin də adlarını öyrənirik.

Ailədəki 5 qadından ikisini Qurbanəli ilə Mehralının arvadları hesab etsək, bu qardaşların 3 qızının olması da məlum olur, amma onların neçəsi hansı qardaşın qızıdır, bilmirik.

Göründüyü kimi, kameral siyahı 2 rəqəmlə sıralanıb. Buradakı birinci rəqəm, yəni 11 rəqəmi ailənin hazırkı, 1873-cü ilin kameral siyahısındakı, 19 rəqəmi isə əvvəlki, 1859-cu ildə tərtib edilmiş Kameral siyahıdakı nömrəsini göstərir.

İndi bu ailənin 1859-cu ildəki vəziyyətinə baxaq:

"İrəvan qəzası Dərələyəz nahiyəsi kəndlərinin kameral siyahısı.1859-cu il.
SALLI kəndi.
19.7.Qurbanəli Kərbəlayı Mahmud oğlu 35 y;
qardaşları: Fərzalı 30 y (onun oğlu Hüseyn 2 y);
Mehralı 29 y (əvvəlki kameral siyahıda yaddan çıxıb); oğlu Məhəmməd 1 y.
Ailədə 5 qadın var" [9].

Siyahıdan məlum olur ki, Kərbəlayı Mahmudun Fərzalı adında daha bir oğlu, Fərzalının isə Hüseyn adında 2 yaşlı oğlu var. Mahmudun Kərbəla, Qurbanəlinin isi Məkkə ziyarətində olması buailənin bir tərəfdən dindar, digər tərəfdən isə imkanlı olduğunu göstərir.

1801-ci ildə doğulan Mahmud Alı oğlunun siyahıda olmaması onun vəfat etdiyini göstərir, məlum olur ki, Mahmud 58 yaşına çatmadan ölüb, amma hansı ildə öldüyünü bilmirik.

Mehralının adından sonrakı qeyd onun 1852-ci ilin kameral siyahısında olmadığını göstərir. Amma Mehralı təkcə 1852-ci ilin deyil, 1842-ci ilin kameral siyahısında da unudulub:

**“Naxçıvan qəzası Dərələyəz mahalının Kameral təsviri. 1842-ci il.**

**№ 18 (39). SALLI KƏNDİ.**

**Bərgüşad tayfası**

**6.Mahmud Alı oğlu 45 y; oğlu Qurbanəli 20 y.**

İslam dininin şiə məzhəbinə mənsubdurlar. Kəndin 14 Naxçıvan xalvarı əkin yeri var, 18 Naxçıvan xalvarı buğda, 23 Naxçıvan xalvarı arpa əkirlər.

Xəzinəyə məxsus olan bu kənddən qəza mərkəzinə 85, nahiyə mərkəzinə 14 verstdir.

Əkinçilik və xalçaçılıqla məşğul olurlar. Dolanışıqları yaxşıdır.

Torpağı daşlı-gillidir. Öz meşəsi olmadığına görə 5 verst məsafədə yerləşən Hors meşəsindən istifadə edirlər.

14 verst torpağı var, onun 20 xalvarı əkinə yararlıdır. Çay və bulaq suyundan istifadə edirlər.

Biçənəkləri az olsa da, ətraf dağlar yaxşı örüş yeridir.

Buğda, arpa və darı əkirlər.

Kənddə 10 at, 120 iribuynuzlu, 257 xırdabuynuzlu heyvan var.

***İmzalar:Xanasanlı tayfasının icma başçısı Əlihüseyn Məşədi Alməmməd oğlu (möhür); kəndxuda Nəbi Kərbəlayı Fətəli oğlu; Bayraməli Səfalı oğlu”[2].***

Siyahıya almanın keçirildiyi 1842-ci ildə Sallı kəndində 17 ailə yaşayırdı ***[8, s.179-180].***

Xatırladaq ki, o vaxt Naxçıvan şəhəri qəza mərkəzi,Keşişkənd isə nahiyə mərkəzi idi.

İ.Şopenin rəhbərliyi ilə tərtib edilmiş Dərələyəz mahalının 1831-ci ilə aid Kameral təsvirində ***(qeydiyyatçı katib V.Zolotnitski)*** isə başqa qohumları ilə yanaşı, Aşıq Cəlilin atası Mehralının da adı var:

**“Naxçıvan əyaləti Dərələyəz mahalının Kameral təsviri. 1831-ci il.**

**№39. SALLI KƏNDİ.**

***Bərgüşad tayfası***

**7.Mahmud Alı oğlu 30 y; arvadı Reyhan 30 y; iki oğlu var: Qurbanəli 8 y; Mehralı 1 y; iki qızı var: Mələk 9 y; Hürü 5 y.**

Bu kənd Səlimçayın yaxınlığında yerləşir. Ərazisi 14 verstdir, onun 20 xalvarı əkinə yararlı suvarılan torpaqdır. Çay və bulaqların suyundan istifadə edirlər. Az miqdarda ot biçirlər, lakin ətraf dağlar əlverişli otlaqlardır.

Buğda, arpa və darı əkirlər.

Kənddə 75 öküz, 73 inək, 45 buzov, 522 qoyun, 253 keçi, 26 at və 11 ulaq var.

Kənd xəzinəyə məxsusdur”[8, s.89-91].

Sallı kəndində 1831-ci ildə də 1842-ci ildə olduğu kimi 17 ailə yaşayırdı.

Dərələyəz mahalının 1831-ci ilə aid Kameral təsvirindən Aşıq Cəlilin nəsil şəcərəsi haqqında ətraflı məlumatlar əldə edirik. Əgər Mahmud doğulan vaxt atası Alının 30 yaşında olduğunu ehtimal etsək, Alı təxminən 1770-ci ildə doğulub. Beləliklə, Aşıq Cəlilin 250 illik şəcərəsini müəyyən etmiş olduq.

Təəssüf ki, kiçik oğlu Aşıq Bəhmənin 1944-cü ildə ikinci dünya müharibəsində itkin düşməsi ilə Aşıq Cəlilin kişi cinsindən olan nəsli gəlib bizə çatmayıb. Başqa bir oğlu Xəlil isə erməni daşnakların 1918-ci ildə Dərələyəzdə törətdiyi qırğınlar zamanı həlak olmuşdur[16].

Aşıq Cəlil haqqında əldə etdiyimiz mühüm məlumatlardan biri də onun etnik mənsubiyyətinin qaraçorluların bərgüşüd tayfasına mənsub olmasıdır.

Qadın adlarının da qeyd edildiyi bu yeganə və qiymətli Kameral təsvirdən Mahmudun atasının, arvadının və qızlarının da adlarını öyrənirik.

Cəlilinnənəsi Reyhan həyat yoldaşı Mahmud kimi 1801-ci ildə, bibiləri Mələk1822-ci,Hürü isə 1826-cı ildə doğulmuşlar.

1831-ci və 1842-ci illərin kameral siyahılarında Mahmudun yaşında müəyyən fərq də nəzərə çarpır. 1831-ci ildə 30 yaşında göstərilən Mahmudun 1842-ci ildə 41 yaşı olmalı idi, amma 45 yaşında göstərilib. Bunlardan hansına üstünlük verilməsinə gəlincə, bu sənədlərlə olan iş təcrubəmiz göstərir ki, 1831-ci ilin Kameral siyahısı daha mötəbər hesab olunmalıdır.

Mehralının özünə gəlincə, 1831-ci ildə 1, 1859-cu ildə 29, 1873-cü ildə isə 43 yaşında göstərilməsi onun 1830-cu ildə doğulduğunu göstərir.

1831-ci və 1842-ci ilin kameral siyahılarında Mehralının özündən böyük qardaşı Fərzalının da adı qeyd edilməyib.

1873-cü ilin Kameral siyahısında Fərzalı Hacı Qurbanəlinin evindəyox, ayrıca qeydə siyahıya alınmışdır:

***"40.19.Fərzalı Hacı Mahmud oğlu 40 y.***

***Ailədə 1 qadın var"*** [10].

Sənəddə Fərzalının oğlu Hüseynin adı yoxdur, əgər yaşasaydı, 15 yaşında olmalı idi, deməli həmin yaşa çatmadan ölüb. Fərzalının adının üstündən göy karandaşla xətt çəkilib, bu işarə onun da siyahıya almadan sonra vəfat etdiyini göstərir, amma oğlu Hüseyn kimi onun da hansı ildə öldüyü məlum deyil.

Müraciət edəcəyimiz sonuncu kameral təsvir 1886-cı ilə aid **"Əyal(ailə) dəftəri"**dir. Orada Cəlilin ailəsi ayrıca göstərilib:

"**ŞƏRUR-DƏRƏLƏYƏZ qəzasının Ələyəz kənd icmasına daxil olan SALLI kənd sakinlərinin Əyal (ailə) dəftəri.1886-cı il.**

***11.11.Hacı Qurbanəli Kərbəlayı Mahmud oğlu 62 y; oğlanları: Mehdi 10 y; Abbas 6 y; İmran 2 y (ailədə 3 qadın var).***

***46.11.Mehralı Kərbəlayı Mahmud oğlu 56 y;***
***oğlanları: Məhəmməd 28 y; onun oğlu İsgəndər 2 y;***
***Cabbar 20 y; Cəlil 18 y; Mahmud 8 y (6 qadın var).***

Əslini imzaladılar.1.Müvəkkil edilmiş şəxslər: Hüseynalı Qoçəli oğlu; İbrahim Kərbəlayı Mahmud oğlu; Hüseynalı Kazım oğlu. 2.Kəndxudanın müavini Cəfər Hüseynqulu oğlu; 3.Ələyəz kəndinin kəndxudası Allahverən Kərbəla-

yı Cəfər oğlu. Savadsız olduqlarına görə şəxsi xahişləri ilə onların yerinə Molla Süleyman Kərbəlayı Şükür oğlu və 4.Məhəllə mollası Axund Əli Molla Səfərali oğlu imza etdilər.

***Əslini tərtib etdi və faktiki yoxlamanı həyata keçirdi: Şərur-Dərələyəz qəza rəisinin müavini Nazaryans.***

***Düzgünlüyünü təsdiq etdi: Şərur-Dərələyəz qəzasının rəisi (imza)"***[30].

Göründüyü kimi, Cəlilin atası Mehralı artıq qardaşı Hacı Qurbanəlidən ayrılıb.

Qurbanəlinin 1873-cü ilin siyahısında 7 yaşında Mehdi adında bir oğlu var idi. Görünür, Mehdi ən azı 10 il bundan əvvəl ölüb, əks halda 23 yaşında olmalı idi. Sonradan doğulan uşağına Mehdi adını qoyan Qurbanəlinin Abbas və İmran adında daha 2 oğlu var. Onlar Cəlilin əmisi oğlanlarıdır.

Cəlilin öz ailəsinə gəlincə, burada onun daha bir qardaşını-8 yaşlı Mahmudu və böyük qardaşı Məhəmmədin 2 yaşlı oğlu İsgəndəri də görürük. Mehralı 1878-ci ildə doğulan sonuncu, dördüncü oğluna atası Mahmudun adını qoyub.

***3.Aşıq Cəlilin müasirləri***

Tədqiqatçılar Ə.Şamil, Q.Kəngərli, H.Mirzəyev və başqalarının adını çəkdikləri, Aşıq Cəlilin müasiri olan aşıq və şairləri də bu siyahılarda axtarmaq maraqlı nəticələrə gətirə bilərdi. Onlardan birini-şair Təhməzi müəyyənləşdirmək mümkün oldu:

**"SALLI kəndi, 1873-cü il.**

**24.10.Hacı Əlipənah Məhəmməd oğlu 65 y;**

***oğlanları:*** **Behbud 34 y; onun oğlanları: Məhəmməd 3 y; Məmmədqulu 2 y;**

**İbrahim 28 y; oğlanları:** ***Təhməz 5 y;*** **Qulaməli 1 y;**

**Gülmalı 24 y (ailədə 6 qadın var)"**[10].

Göründüyü kimi Şair Təhməz Aşıq Cəlillə eyni ildə, 1868-ci ildə doğulub.

Kənddə ayrı Təhməz yoxdur və onu kiminləsə səhv salmaq mümkün deyil.

Kəndin siyahısında Təhməzin başqa bir əmisi də var:

**"41.10.Dünyamalı Hacı Əlipənah oğlu 45 y; oğlanları: Baxşəli 22 y; Yəqinəli 15 y; Möhbalı 14 y; Namazəli 5 y; Qurbanəli 3 y (ailədə 3 qadın var)"**[10].

Təhməzin ailəsi 1859-cu ilin kameral siyahısında və 1886-cı ilin Əyal dəftərində də var. Güman edə bilərik ki, bu məlumatlar Şair Təhməzin irsini araşdıracaq gələcək tədqiqatçılar üçün faydalı olacaqdır.

Nəzərdən keçirdiyimiz sənədlərdə Dəllək Xələfin adını aşkar etmək mümkün olmadı, Xələf adına ümumiyyətlə, rast gəlmədik.

**ƏDƏBİYYAT**

1. Alıyev (Səfolu) A. Dərələyəz folklorunun regional xüsusiyyətləri. Bakı, 2008
2. AMDTA (Azərbaycan Mərkəzi Dövlət Tarix Arxivi), F.25, s.2, s.v.6.
3. (ARXK) Azərbaycan Respublikası Xatirə kitabı. 9-cu cild. Bakı, 2009.
4. Azərbaycan Sovet Ensiklopediyası, C.10, Bakı, 1987.
5. Dərələyəzli K. Aşıq Cəlil yaradıcılığı.// Dərələyəz qəz., 16.03.2013. №4(24).

6. Dərələyəzli K. Dərələyəz od içində. Bakı, 2001.
7. Dərələyəz folkloru (Tərtib edənlər: H.Mirzəyev, H.İsmayılov, Ə.Ələkbərli). Bakı, 2006.
8. Dərələyəz mahalının Kameral təsviri (Tərcümə edən, çapa hazırlayan və Ön sözün müəllifi Nazir Əhmədli). Bakı, 2017.
9. Erm. Milli Arxivi, F.93. s.1. sax.vah.136.
10. Erm. Milli Arxivi, F.93, s.1, s.v.165.
11. Ələkbərli Ə. Abbasqulu bəy Şadlınski. Bakı, 1996.
12. Ələkbərli Ə. Qərbi Azərbaycan. Vedibasar mahalı, 1-ci c. Bakı, 2000.
13. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri (Ön söz, tərcümə, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı)). Bakı, 2000.
14. Hüseynli M. Cəlili havası kimindir?// "Təzadlar" qəz., 17.01.2015.
15. Kazımov Q. Aşıq Cəlilin sorağı ilə.// "Qobustan" jur., 1989, №3.
16. Kəngərli Q. Aşıq Cəlil kimdir? //"Ozan" qəz., 29.02.1992, №2(2).
17. Kəngərli Q. Erməni lobbisi...Azərbaycan faciəsi. Bakı, 1992.
18. Qarabağnamələr, 2-ci kitab, Bakı, 2006.
19. Qasımlı M. Folklor və ədəbiyyat araşdırmaları. Bakı, 2017.
20. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı, 2011.
21. Qriqoryev V. Statistiçeskoe opisanie Naxiçevanskoq provinsii S.Pb, 1833.
22. Mirzəyev H. Qərbi Azərbaycanın Dərələyəz mahalı. Bakı, 2004.
23. Naxçıvan sancağının müfəssəl dəftəri (Araşdırma, qeyd və şərhlərin müəllifi H.Məmmədov (Qaramanlı), tərcümə edənlər: Ziya Bünyadov və H.Məmmədov (Qaramanlı)), Bakı, 2001.
24. Süleymanov M. Türkmənçay müqaviləsi. Bakı, 2015.
25. Şamil A.Sallı Aşıq Celil.//Folklor-Edebiyyat(Nahçıvan özel sayısı), N3(51).
26. Şamilov Ə. Ашуг Джалил.// газ."Советская Нахичевань", 4.12.1985, №297(1144).
27. Şamil Ə. Dastanlaşmış ömürlər. Bakı, 2001.
28. Şamilov Ə. El sənətkarları. Aşıq Cəlil // "Sovet Naxçıvanı" qəz,15.12.1985, №291 (14329).
29. Şamil Ə. Sallı Aşıq Cəlil.//"Dədə Qorqud" jur., 2007, N3.
30. Şərur-Dərələyəz qəzasının Əyal (ailə) dəftəri. Erm. Milli Arxivi, F.93, s.1, s.v.221.
31. Şopen İ. İstoriçeskiy pamyatnik Armyanskoy oblasti v epoxu ee prisoedinenie k Rossiyskoy imperii. S.Pb. 1852.

***Çapa tövsiyə edən:*** *Fil.ü.e.d. Seyfəddin Qəniyev*